# Uğurlarımız da çoxdur, görüləcək işlərimiz də

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin çıxışlarında qeyd etdiyi kimi, təhsilin inkişafı ölkədə əhalinin rifahının yaxşılaşması, həmçinin, fərdin həyatının daha yüksək səviyyədə qurulması üçün zəmin yaradır, insanlara texnologiyaları çevik mənimsəmək, əmək bazarında layiqli yer tutmaq, sağlam həyat tərzi, ətraf mühitə münasibətdə düzgün mövqe seçmək imkanı verir. Ölkəmizin digər regionlarında olduğu kimi, Oğuz rayonunda da təhsil sahəsində qeyd olunan istiqamətlərdə kifayət qədər uğurlar qazanılmışdır. Rayon təhsil şöbəsinin müdiri Elçin Kərimov bölgə müxbirimizlə söhbətində bildirmişdir ki, uğurlar çoxdur, bununla yanaşı, həllini gözləyən daha vacib vəzifələr də var. Bütün bunları konkret faktlarla şərh etmək yerinə düşər:

-Əlbəttə, əldə olunan uğurların ildən-ilə artması nəticəsində, xüsusilə Oğuza bu istiqamətdə də göstərilən dövlət qayğısına və dəstəyinə görə rayonumuz regionda və respublikada ön sıralara çıxmağa nail olmuşdur. Təkcə bir faktı qeyd edim ki, dövlət qayğısı sayəsində rayonumuzdakı 1 saylı tam orta məktəbin kimya müəllimi İradə Eldarova "Tərəqqi" medalı, həmin məktəbin rus dili və ədəbiyyat müəllimi Nüşabə Hacıyeva Təhsil Nazirliyinin fəxri fərmanı, 3 saylı məktəb lisey "İlin ən yaxşı məktəbi", 1 saylı tam orta məktəbin biologiya müəllimi T.Quliyeva, Xaçmaz kənd 2 saylı tam orta məktəbin fizika müəllimi Ceyhun Qədirov "İlin ən yaxşı müəllimi" müsabiqəsinin qalibi adına layiq görülmüşlər.

Hər cür diqqət və qayğı göstərilir, ən əsası da təhsilin maddi-texniki bazası ildən-ilə möhkəmləndirilir, bacarıqlı, səriştəli, bilikli kadrlarla təminata önəm verilir, Təhsil Nazirliyinin həyata keçirdiyi məqsədyönlü tədbirlərdən irəli gələn möhtəşəm vəzifələr rayonumuzun təhsil işçiləri tərəfindən də layiqincə icra olunur və nəticədə uğurlarımız üçün etibarlı təminat yaradır. Oğuz təhsilinin tarixinə yaddaqalan səhifələr yazılır. Son 10 ildə rayonumuzda əsaslı təmir olunan və yeni inşa edilən məktəblərin sayı 19-a çatmışdır. Onlardan ikisi – Qarabulaq və Yaqublu kənd məktəblərinin binaları 2014-2015-ci dərs ilində istifadəyə verilmişdir. Təhsil müəssisələrimizdə informasiya- kommunikasiya texnologiyalarının tətbiqinə də xüsusi fikir verilir. Hazırda məktəblərimizdə 319 kompüter, 55 noutbuk, 44 proyektor var. 18 məktəb vahid internet xəttinə qoşulmuşdur. Bütün bunlar bizə innovativ təlim metodlarından fəal istifadədə, tədrisin keyfiyyətini yüksəltməkdə böyük kömək göstərir.

Təhsil konsepsiyasının tətbiq olunduğu ilk ildən başlayaraq ibtidai təhsil pilləsi və kurikulum proqramları tətbiq olunan növbəti siniflərdə dərs ilinin sonunda tədrisin keyfiyyətini öyrənmək məqsədilə təhsil şöbəsi tərəfindən monitorinq aparılır. Nəticələr şöbənin şura iclasında geniş təhlil olunur. Aşkara çıxarılan nöqsanlar barədə ciddi tədbirlər görülür. Müasir təhsilin tələblərinin öhdəsindən gələ bilməyənlər xüsusilə ibtidai təhsil pilləsində özünü doğrultmayan müəllimlər tədris prosesindən kənarlaşdırılır. Müqayisə üçün deyim ki, 2015-ci illə müqayisədə sinif müəllimlərinin sayı görülən tədbirlər nəticəsində 227 nəfərdən 195 nəfərə düşüb, ali təhsilli ibtidai sinif müəllimlərinin çəkisi 63,1 faizdən 67,2 faizə yüksəlmişdir. Yeri gəlmişkən qeyd edim ki, monitorinq zamanı şəhərdəki 1 saylı tam orta, 3 saylı məktəb-liseyin, həmçinin Yaqublu, Bayan, Mollalı, Baş Daşağıl kənd tam orta məktəblərində kurikulum proqramlarının yerinə yetirilməsi sahəsində xeyli işlər görülmüşdür.

Fənn olimpiadalarının respublika turunda şəhərdəki 3 saylı məktəb-liseyin XI sinif şagirdi Aqşin Əliyev III yeri tutaraq bürünc medala layiq görülmüşdür. Rusiya səfirliyinin təşəbbüsü ilə dahi rus şairi G.Yeseninin 120 illik yubileyinə həsr olunan respublika müsabiqəsində Oğuz şəhər 1 saylı tam orta məktəbin 7-ci sinif şagirdi Diana Yeliseyeva respublika mərhələsində II yerə çıxmışdır. Belə sevindirici uğurlarımız xeyli çoxdur. IX və XI sinif şagirdlərinin ümumi orta və tam orta səviyyələri üzrə Tələbə Qəbulu üzrə Dövlət Komissiyası tərəfindən keçirilən buraxılış imtahanları əldə olunan nəticələrin təsadüfi olmadığını bir daha təsdiqlədi. TQDK-nın yekun statistik hesabatlarına görə Oğuzun respublika, həmçinin kənd rayonları üzrə yaxşı yerləri tutması da bunun təzahürüdür. İmtahan nəticələrinə görə 19 nəfər şagirdimiz xüsusi nümunəli şəhadətnaməyə layiq görülmüşdür.

Məlum olduğu kimi, orta təhsilin yekun göstəricisini müəyyən edən əsas amillərdən biri də məzunların ali və orta ixtisas məktəblərinə qəbul olunması ilə müəyyən edilir. Məqsədlərdən biri də orta məktəb məzunlarının ali təhsilə cəlb olunmasının 40 faizə çatdırılmasıdır. 10 məktəbin məzunlarının builki göstəriciləri yüksək səviyyədədir. 16 məktəbimiz ötən dərs ilinə nisbətən 2014-2015-ci dərs ilində bu sahə üzrə göstəricilərini artırmağa müvəffəq olmuşdur. Bu il tələbə adını qazanan 195 nəfər Oğuzlu gəncdən 181 nəfəri ixtisas seçimində dövlət ali məktəblərinə, 14 nəfəri isə özəl ali məktəblərə üstünlük vermişdir.

Uğurlarımız çoxdur və mən onların bir qismindən söhbət açdım. Fəaliyyətimizi daha da canlandırmaqla, Respublika Təhsil Nazirliyinin qarşıya qoyduğu yeni vəzifələr baxımından daha səmərəli qurmaqla, rayon icra hakimiyyəti ilə birgə məqsədyönlü işimizi daha da genişləndirməklə müvəffəqiyyətlərimizi daha da artırmağı bir nömrəli işimiz hesab edirik. Bunun üçün rayonun təhsil sistemində bundan sonra da görülməli



işlər barədə də ciddi düşünürük. Bəli, görülməli işlərimiz də yetərincədir və onların da bəziləri haqqında söhbət açmaq yerinə düşər. Maddi-texniki bazanın möhkəmləndirilməsi sahəsində bəzi problemlərlə qarşılaşırıq. 5 tam orta, 3 ümumi orta, 2 ibtidai məktəb, 11 məktəbəqədər təhsil müəssisəsi uyğunlaşdırılmış köhnə binalarda yerləşir. Regionda bu günlərdə baş vermiş güclü zəlzələdə rayonun Padar, Astraxanovka kənd tam orta məktəblərində, Yenikənd körpələr evi-uşaq bağçasında qəzalı vəziyyət yaranmışdır, Kərimli kənd tam orta məktəbində əsaslı təmirə, bərpa-gücləndirmə işlərinin aparılmasına ciddi ehtiyac var.

Artıq 2015-2016-cı dərs ili başlanmışdır. Qeyd edim ki, qazandığımız çoxlu sayda uğurlar bizə bu tədris ilinə etibarlı bünövrə ilə başlamağa real imkan yaratmışdır. Yuxarıda qeyd etdiyim bu və ya digər problemlərin həllinə nail olsaq, şübhəsiz, müvəffəqiyyətlərimiz daha çox olar. Onu da deyim ki, qeyd etdiyim və etmədiyim problem və vəzifələrin bir çoxunun həlli şöbəmizin kollektivinin, rayonumuzun təhsil müəssisələri rəhbərlərinin gücü səviyyəsindədir və artıq bu istiqamətdə əməli fəaliyyət göstərilir. Əlbəttə, bütün bunlar respublika Təhsil Nazirliyinin, Oğuz Rayon İcra Hakimiyyəti rəhbərliyinin bizə göstərdiyi köməyin, dəstəyin sayəsindədir. Qarşıdan gələn qış mövsümü üçün lazım olan hazırlıq işlərinin də bir çoxu həll olunmuşdur.

**Söhbəti qələmə aldı:**
**Rasim AMANOV,**
**"Respublika".**